**DOI:** https://doi.org/10.59849/2957-3882.2026.1.77

# ŞƏXSİ ARXİVLƏRİN MİLLİ İDEOLOGİYA TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ ƏHƏMİYYƏTİ
## (M.Füzuli adına ƏYİ-nin materialları əsasında)

**Aytən İMANOVA**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, böyük elmi işçi.*
*E-mail: imanova_ayten@hotmail.com*

*Daxilolma tarixi: 20.11.2025*
*Düzəliş tarixi: 12.01.2026*
*Nəşrə təsdiq tarixi: 15.04.2026*

## XÜLASƏ

Məqalədə milli oyanış ideyalarının təşəkkülü və təkamülünün öyrənilməsinə tarixşünaslıqdakı boşluqların təsiri araşdırılmışdır. Fikrimizcə, bu boşluqları yaradan səbəblərdən biri də araşdırmaçıların qaynaqlara və onun ayrılmaz hissəsi olan şəxsi arxivlərə müraciət etməməsi, onlardan yetərincə istifadə etməmələridir. Bu həm də XIX əsrdən siyasi müstəqilliyini itirən Azərbaycan xalqının milli-azadlıq hərəkatının tarixi araşdırılarkən subyektivlikdən uzaq olmaq, XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində təşəkkül tapan milli oyanış ideyalarının tarixinin dərindən və müxtəlif aspektlərdən tədqiq etmək üçün vacibdir.

Məqalə XIX əsrdə Azərbaycan torpaqlarının imperiyalar arasında bölünməsi nəticəsində xalqın siyasi müstəqilliyini itirməsi və bunun doğurduğu milli oyanış proseslərini araşdırır. Bu dövrdə Azərbaycan xalqı təkcə siyasi azadlıq deyil, həm də dil, din, mədəniyyət və tarixi kimliyini qorumaq uğrunda ciddi mübarizə aparmışdır. Bu mübarizə nəticəsində milli ideologiya və milli şüur formalaşmış, maarifçilik hərəkatı genişlənmişdir.

İdeologiya tarixi proses kimi izah edilərək onun mifik təfəkkürdən başlayaraq müasir milli düşüncəyə qədər inkişaf etdiyi göstərilir. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər ziyalıların fəaliyyəti milli oyanışın əsas sütunları kimi təqdim olunur.

Məqalədə xüsusi arxivlərin rolu vurğulanır. Son 35 il ərzində Azərbaycan milli-azadlıq hərəkatı tarixi müxtəlif aspektlərdən araşdırılsa da, tədqiqatçılar XIX-XX əsr Azərbaycan ictimai və siyasi fikir tarixində mühüm rol oynayan mütəfəkkirlərin, milli-azadlıq hərəkatının aparıcı qüvvələrinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxiv materiallarına istinad etmədiyindən problemin bu istiqamətdən araşdırılmasını aktual hesab edirik. Məqalədə istinad olunan arxiv materiallarının mühüm hissəsi elmi dövriyyəyə ilk dəfə daxil edilir.

***Açar sözlər:*** *milli-mənəvi dəyərlər, bədii sənədlər, "Müsəlman məktəbinin təsisi haqqında" layihə, qız məktəbi, istibdad, milli birlik, ittihad.*

# ЗНАЧЕНИЕ ЛИЧНЫХ АРХИВОВ В ИЗУЧЕНИИ ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ
## (По материалам Института Рукописей им. М. Физули)

**Айтен ИМАНОВА**
*Институт Рукописей имени Мухаммеда Физули*
*Национальной Академии наук Азербайджана,*
*старший научный сотрудник*
*E-mail: imanova_ayten@hotmail.com*

*Дата поступления: 20.11.2025*
*Дата исправления: 12.01.2026*
*Дата утверждения к публикации: 15.04.2026*

## АННОТАЦИЯ

В статье исследуется влияние лакун в историографии на изучение процессов формирования и эволюции идей национального пробуждения. По нашему мнению, одной из причин существования этих пробелов является недостаточное обращение исследователей к источникам, в том числе к их неотъемлемой части — личным архивам, а также их ограниченное использование. Это обстоятельство имеет особую значимость при изучении истории национально-освободительного движения азербайджанского народа, утратившего политическую независимость с XIX века, поскольку оно позволяет избежать субъективности и обеспечить более глубокое и многоплановое исследование идей национального пробуждения, сформировавшихся во второй половине XIX – начале XX века.

Статья посвящена процессу национального пробуждения, возникшему в результате раздела азербайджанских земель между империями в XIX веке и последующей утраты политической независимости. В указанный период азербайджанский народ вел активную борьбу не только за политическую свободу, но и за сохранение языка, религии, культуры и исторической идентичности. В результате этой борьбы сформировались национальная идеология и национальное самосознание, а также расширилось просветительское движение.

Идеология рассматривается как исторический процесс, развивающийся от мифологического мышления до современного национального сознания. Особое внимание уделяется деятельности таких выдающихся представителей интеллигенции XIX – начала XX века, как Аббаскули ага Бакиханов, Мирза Фатали Ахундов, Гасан бек Зардаби, Джалил Мамедкулизаде и других, которые представлены как основные опоры национального пробуждения.

В статье также подчеркивается роль частных архивов. Хотя в течение последних 35 лет история азербайджанского национально-освободительного движения исследовалась с различных точек зрения, отсутствие систематического обращения исследователей к личным архивным материалам мыслителей XIX–XX веков и ведущих деятелей национального движения, хранящимся в Институте рукописей НАНА имени Мухаммеда Физули, обусловливает актуальность дальнейшего изучения данной проблемы. Значительная часть использованных архивных материалов впервые вводится в научный оборот.

***Ключевые слова:*** *национально-духовные ценности, художественные документы, проект «Об учреждении мусульманской школы», женская школа, угнетение, национальное единство, консолидация.*

# THE IMPORTANCE OF PERSONAL ARCHIVES IN THE STUDY OF THE HISTORY OF NATIONAL IDEOLOGY
## (Based on materials from the M. Fizuli Institute of Manuscripts)

**Aytan IMANOVA**
*Senior Researcher,*
*Institute of Manuscripts named after Muhammad Fuzuli*
*of the Azerbaijan National Academy of Sciences*
*E-mail: imanova_ayten@hotmail.com*

*Date of submission: 20.11.2025*
*Date of revision: 12.01.2026*
*Date of acceptance for publication: 15.04.2026*

## ABSTRACT

The article examines the impact of historiographical gaps on the study of the formation and evolution of ideas related to national awakening. In our view, one of the primary causes of these gaps is the insufficient engagement of researchers with sources, particularly with their integral component—private archival materials—and their limited use in scholarly inquiry. This issue is especially significant for the study of the Azerbaijani national liberation movement, which emerged following the loss of political independence in the 19th century. Addressing this deficiency is essential to avoid subjectivity and to ensure a more comprehensive and multidimensional analysis of the ideas of national awakening formed in the second half of the 19th and early 20th centuries.

The article focuses on the process of national awakening that arose as a consequence of the division of Azerbaijani territories among imperial powers in the 19th century and the subsequent loss of political sovereignty. During this period, the Azerbaijani people engaged in a determined struggle not only for political freedom but also for the preservation of their language, religion, culture, and historical identity. As a result of this struggle, national ideology and national consciousness were formed, and the enlightenment movement expanded significantly.

Ideology is conceptualized as a historical process evolving from mythological thinking to modern national consciousness. Particular attention is given to the activities of prominent intellectual figures of the 19th and early 20th centuries, including Abbasgulu agha Bakikhanov, Mirza Fatali Akhundov, Hasan bey Zardabi, Jalil Mammadguluzadeh, and others, who are presented as the principal pillars of the national awakening.

The article also emphasizes the significance of private archival sources. Although the history of the Azerbaijani national liberation movement has been studied from various perspectives over the past 35 years, the lack of systematic reference to personal archival materials of 19th–20th century thinkers and leading figures of the national movement preserved at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS renders further investigation of this issue highly relevant. A substantial portion of the archival materials cited in this study is introduced into scholarly circulation for the first time.

***Keywords:*** *national and spiritual values, artistic documents, project "On the establishment of a Muslim school", girls' school, oppression, national unity, consolidation.*

**Giriş**

XIX əsrdə torpaqlarının işğalçı imperiyalar arasında bölüşdürülməsi ilə uzun zaman siyasi müstəqilliyini itirən Azərbaycan xalqı tarixin olduqca mürəkkəb və təzadlı illərinə qədəm qoymuş oldu. Həm quzeydə, həm də güneydə Azərbaycan xalqının üzləşdiyi ən böyük çətinlik tarixini, dilini, dinini, mədəniyyətini itirmək təhlükəsi ilə mübarizə etmək olmuşdur. Məhz bu mübarizə Azərbaycan milli ideologiyasını və milli şüurunu formalaşdırmışdır.

İdeologiya hər bir millətin mənəvi varlığının ilkin əlaməti kimi milli kimliyin əksi olan təfəkkürün, adət və inancların əsasında formalaşır. Ona görə də ideologiyanın təşəkkül tarixinin ilk dönəmini insan cəmiyyətinin mifik təfəkkür dövrünə aid etmək olar. İdeologiyanın əsas xüsusiyyəti isə onun tarixiliyidir. Belə ki, ideologiya tarixin ən qədim dövrlərində meydana çıxaraq sonrakı tarixi təşəkkül prosesində inkişaf etmiş, xalqın və millətin tərəqqisinin gələcək istiqamətlərini, sonunda obyektiv məntiqi nəticə kimi qurulan dövlətlərin tarixi şəklinin və quruluşunun formalaşması üçün zəmin yaratmışdır. İdeologiya özü də cəmiyyətlə birgə və paralel olaraq təkmilləşir, zamanla ictimai-siyasi hadisələri yönəldən milli oyanış ideyaları, milli özünüdərk, milli birlik, demokratik dəyərlər, dünyəvilik, sosial gerçəklik, insan hüquqlarının realist dərki, azadfikirlilik kimi başlıca inkişaf meylləri ilə şaxələnərək inkişaf etmişdir.

Milli oyanış ideyalarının təşəkkül tarixinin araşdırılması Azərbaycanın XIX əsrdə itirilmiş milli dövlətçiliyinin bərpası uğrunda milli-azadlıq hərəkatının tarixinin araşdırılması deməkdir. XX əsrin əvvəllərində milli-azadlıq hərəkatı Azərbaycan Cümhuriyyətinin yaranması ilə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi olaraq qeyd etmişdir: *"Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi". "Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər"* (Əliyev, 2017).

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş və 30 ildir ki, dünya birliyinin müstəqil üzvüdür. Müasir dünyada gedən qloballaşma prosesinə demək olar ki, bütün dövlətlərin və millətlərin cəlb olunması hər bir dövlətin əvvəlcə milliliyi, sonunda milli-siyasi mövcudluğunun məhvinə səbəb ola bilər. Belə ki, inkişaf etmiş dövlətlər sosial-siyasi hüquqlar sistemini və milli-mənəvi dəyərlərini multikultural dəyərlər kimi digər dövlətlərə qəbul etdirməyə çalışırlar. Bu gün beynəlxalq dünyada cərəyan edən hadisələrdən kənarda qalmamaqla siyasi müstəqilliyimizi və milli mənəviyyatımızı qorumaq, həm də müasir milli təfəkkürlü ziyalı xadimlərin yetişdirilməsi müasir dövrün vacib məsələləri sayılır. Bu baxımdan müasir milli-siyasi təfəkkürün və dövlətimizin təməli olan azərbaycançılıq ideologiyasının nəzəri sələfini, XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində təşəkkül tapan milli oyanış ideyalarının tarixinin dərindən və müxtəlif aspektlərdən tədqiq etmək vacibdir.

XX əsrin son onilliyində Avrasiyada baş verən siyasi-coğrafi dəyişikliklər bu bölgənin tarixi-mədəni problemlərinin tədqiqini yenidən aktuallaşdırmışdır. İki əsr ərzində iki dəfə eyni dövlət tərəfindən işğal olunan Azərbaycan tarixində tədqiqatı yasaqlandığı üçün açıqlanmamış mövzular mövcuddur. Şərqin siyasi-mədəni tarixində bir çox başlanğıca imza atan (ilk komediya janrlı əsərlər və ilk operanın yaranması, ilk qadın bəstəkarın yaradıcılığı, ən başlıcası isə ilk parlamentli demokratik dövlətin, Azərbaycan Cümhuriyyətinin qurulması) Azərbaycan xalqının etnik mənşəyi problemi, bu ərazinin tam siyasi coğrafiyası, dövlətçiliyin xronoloji çərçivəsi, qədim epik əsərlərin tarixi aspektdən araşdırılması, milli-azadlıq hərəkatı tarixi məhz bu qəbildəndir. Son 35 il ərzində Azərbaycan milli-azadlıq hərəkatı tarixi müxtəlif aspektlərdən araşdırılsa da, milli oyanış ideyalarının təşəkkül tarixi

ayrıca tədqiqat mövzusu kimi qoyulmamış və ən başlıcası isə, Azərbaycan milli-azadlıq hərəkatını araşdıran tədqiqatçılar tərəfindən XIX-XX əsr Azərbaycan ictimai və siyasi fikir tarixində mühüm rol oynayan mütəfəkkirlərin, milli-azadlıq hərəkatının aparıcı qüvvələrinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxiv materiallarına istinad edilməmişdir.

**Şəxsi arxivlər və onların özəllikləri**

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XIX-XX əsrlərdə yaşayıb yaratmış, milli oyanış ideyalarının yaranması və təşəkkülündə bilavasitə iştirak edən görkəmli mədəniyyət xadimlərimizin, mütəfəkkir və maarifçilərimizin şəxsi arxivləri qorunur.

Bütövlükdə Əlyazmalar İnstitutunun Şəxsi arxivlər fondunda XIX-XX əsrin 32 görkəmli mütəfəkkirinin şəxsi arxivləri aşağıdakı qaydada sistemləşdirilərək qorunur: 1 saylı fondda Abbasqulu ağa Bakıxanovun (1794-1847) 56 saxlama vahidi altında ilk və son tarixləri 1829-1845-ci illəri əhatə edən şəxsi arxiv materialları; 2 saylı fondda Mirzə Fətəli Axundovun(1812-1878) 838 saxlama vahidi həcmində 1835-1935-ci; 3 saylı fondda Həsən bəy Zərdabinin (1837-1907) 166 saxlama vahidində 1826-1908-ci; 4 saylı fondda Nəcəf bəy Vəzirovun (1854-1926) 83 saxlama vahidi həcmində 1854-1929-cu; 5 saylı fondda Seyid Əzim Şirvaninin (1835-1882) 80 saxlama vahidində 1857-1937-ci; 6 saylı fondda Cəlil Məmmədquluzadənin (1866-1932) 595 saxlama vahidi altında 1889-1967-ci; 7 saylı fondda Məhəmməd Tağı Sidqinin (1854-1904) 251 saxlama vahidi altında 1885-1926-cı; 8 saylı fondda Rəşid bəy Əfəndizadənin (1863-1942) 132 saxlama vahidində 1903-1941-ci; 9 saylı fondda Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933) 211 saxlama vahidi altında 1891-1939-cu; 10 saylı fondda Süleyman Sani Axundovun (1875-1939) 205 saxlama vahidi ilə 1894-1937-ci; 11 saylı fond Əli Nəzminin (1882-1946) 109 saxlama vahidində 1902-1946-cı; 12 saylı fondda Azər Buzovnalının (İmamverdiyev) (1870-1951) 123 saxlama vahidi həcmində 1842-1951-ci; 13 saylı fondda Mirzə Rəhim Fənanın (1848-1931) 62 saxlama vahidi altında 1864-1930-cu; 14 saylı fondda Məmməd Səid Ordubadinin (1872-1950) 1091 saxlama vahidində 1875-1950-ci; 15 saylı fondda Hüseynqulu Sarabskinin (1879-1945) 392 saxlama vahidi altında 1853-1975-ci; 16 saylı fondda Cəfər Cabbarlının (1899-1934) 760 saxlama vahidi həçmində 1899-1941-ci; 17 saylı fondda Üzeyir Hacıbəyovun (1885-1948) 940 saxlama vahidi altında 1871-1948-ci; 18 saylı fondda Nəriman Nərimanovun (1870-1925) 283 saxlama vahidi altında 1896-1953-cü; 19 saylı fondda Firudin bəy Köçərlinin (Əhmədov) (1863-1920) 265 saxlama vahidində 1893-1951-ci; 20 saylı fondda Məhəmməd Əli Sidqinin (1888-1956) 265 saxlama vahidində 1893-1951-ci; 21saylı fondda Yusif Vəzir Çəmənzəminlinin (1887-1942) 900 saxlama vahidi altında 1827-1943-cü; 22 saylı fondda Əzim Əzimzadənin (1880-1943) 40 saxlama vahidi həcmində 1909-1959-cu; 23 saylı fondda Əliabbas Müznibin (1883-1938) 387 saxlama vahidində 1890-1948-ci; 24 saylı fondda Salman Mümtazın (1884-1941) 689 saxlama vahidi altında 1856-1934-cu; 25 saylı fondda Müslüm Maqomayevin (1885-1937) 188 saxlama vahidində 1901-1984-cü; 26 saylı fondda Ömər Faiq Nemanzadənin (1872-1937) 20 saxlama vahidi həcmində 1878-1936-cı; 27 saylı fondda Səməd Vurğunun (1906-1056) 1624 saxlama vahidi altında 1870-1972-ci; 28 saylı fondda Qəmər bəyim Şeydanın (1881-1933) 40 saxlama vahidində 1918-2000-ci; 29 saylı fondda Zülfüqar Hacıbəyovun (1884-1950) 118 saxlama vahidi həcmində 1899-1949-cu; 30 saylı fondda Seyid Hüseynin (1887-1937) 13 saxlama vahidində 1912-1935-ci; 31 saylı fondda Qulam Məmmədlinin (1897-1994) 38 saxlama vahidində 1934-1973-cü; 32 saylı fondda Əbülqasım Hüseynzadənin (1890-1988) 98 saxlama vahidində 1910-1985-ci illəri əhatə edən şəxsi arxiv materialları. M.F.Axundovun şəxsi fondunda oğlu Rəşid bəy Axundova, C.Məmmədquluzadənin arxivində xanımı Həmidə xanım Məmmədquluzadəyə, N.Nərimanovun arxivində xanımı Gülsüm xanım Nərimanovaya məxsus materiallar cəmlənmişdir. Qeyd etmək lazımdır ki, şəxsi arxiv materialları üzərində bir neçə istiqamətdə tədqiqat və tərtib-təbliğ işləri aparılmış, onlar zaman-zaman nəşr edilmişdir. Demək olar ki, hər bir şəxsi arxivin materialları əsasında kataloq tipli təsviri kitablar hazırlanmışdır. Təsvir kitablarında hər bir material ayrı-ayrılıqda incələnərək texniki xüsusiyyətləri və məzmunu ilə oxucuların diqqətinə çatdırılmışdır.

Şəxsi arxivlərin Azərbaycan tarixçiliyi ilə bağlı materialları şərti olaraq, növbəti qaydada qruplaşdırıla bilər: Azərbaycanın siyasi-ictimai tarixi və mədəniyyət tarixi problemlərini əks etdirən materiallar. Hər iki qrup üzrə materialları isə xronoloji baxımdan iki dövrə ayırmaq olar: 1. Qədim dövrlərdən XX əsrin 20-ci illərinə kimi; 2. Sovet dönəmini əhatə edən sənədlər.

Əlyazmalar İnstitutundakı şəxsi arxivlərin özəlliyi ondadır ki, burada artıq dəfələrlə nəşr olunmuş və müxtəlif aspektlərdən tədqiqata cəlb olunmuş əsərlərlə yanaşı müəyyən səbəblərdən hələ işıq üzü görməyən materiallar, ictimaiyyətə artıq tanış olan əsərlərin müxtəlif əlyazma nüsxələri, məktublar, təliqələr, ərizələr və s. toplanmışdır. Bunların əsasında baş verən hadisələrə ədəbi mühitin münasibəti haqqında olduğu kimi, ədəbi mühitin tarixi hadisələrə təsiri və yanaşması haqqında da fikir yürütmək mümkündür. Buna görə də şəxsi arxivləri müxtəlif elm sahələrinin əvəzsiz qaynaqları kimi qiymətləndirmək olar. Şəxsi arxiv materialları (ədəbi əsərlərin müxtəlif əlyazmaları, şəxsi sənədlər, ictimai fəaliyyəti əks etdirən materiallar, şəxsi arxiv sahiblərinin yazdıqları və onlara yazılan məktublar, xatiratlar, şəkillər, qeydlər və s.) ziyalılarımızın dövrün ictimai-siyasi mühiti, milli-siyasi ideologiyanı formalaşdıran din, dil və etnik mənşə kimi amillərə münasibəti aydınlaşdırmağa imkan verirlər.

Şəxsi arxivlər əhatə etdiyi xronoloji çərçivədə cəmiyyətin ədəbi-mədəni və ictimai-siyasi təfəkkürünü əks etdirən qiymətli qaynaqlardır. Təəssüf ki, bu görkəmli şəxsiyyətlərin şəxsi arxivləri bütünlüklə Əlyazmalar İnstitutunun xəzinəsinə daxil olmamışdır. Bəzi materiallar ziyalıların ailələri tərəfindən konyukturanın təqibləri üzündən məxfi saxlanılmışdır. Adları qeyd edilən ziyalıların əksəriyyəti sovet hakimiyyətinin ilk günlərindən siyasi təqiblərə məruz qalmış, həbs olunmuş, bəzilərinin isə həyatına son qoyulmuşdur. Repressiyaya uğrayan və ya 1920-ci ilin aprel işğalı zamanı həyatını itirən bəzi mütəfəkkirlərimizin sənədlərinin çoxu məhv edilmişdir. Belə ziyalılarımızdan F.Köçərli, Y.V.Çəmənzəminli, S.Mümtaz, Ö.F.Nemanzadə və S.Hüseynin adlarını çəkə bilərik. Belə ki, Azərbaycanın görkəmli maarifçisi F.Köçərlinin arxivindən: A.O.Çernyayevskinin 24 məktubu, N.Nərimanovun 2, C.Məmmədquluzadənin 22, A.Səhhətin tərcümeyi-halı və 27 məktubu, M.Ə.Sabirin 3 məktubu, İ.Qaspirinskinin 11 məktubu, onlarla digər görkəmli ziyalılarımızın məktubları, Azərbaycan şairlərinin həyat və yaradıcılığı, şeirləri, nağıl və dastanları, etnoqrafiya və folklor nümunələri, ümumilikdə 500-dən artıq materialın hamısı məhv edilmişdir (Əlioğlu, 2005).

Bəzi ədəbi-mədəni xadimlərimiz isə iki dövr ayrıcında yaşadıqlarından, yaradıcılıq və fəaliyyətlərini sovet dönəmində davam etdirməli olduqlarından arxiv materiallarının bir hissəsi Dövlət arxivlərində məxfi olaraq saxlanılmış, bir hissəsi isə ailələri tərəfindən məhv edilmiş və ya gizlədilmişdir. Buna baxmayaraq, əlimizdə olan materiallar belə həmin dövrün ictimai-siyasi mənzərəsi haqqında tam təsəvvür yaratmağa imkan verir. Əksər hissəsi əlyazma nüsxələri olan materiallar əsasında həm eyni zamanda həm regional, həm də beynəlxalq siyasi hadisələrin milli təfəkkürə təsiri və yaratdığı dəyişiklikləri müşahidə etmək mümkündür.

Əlyazmalar elmin istənilən sahəsi üzrə ilkin qaynaq olaraq qiymətləndirən Paşa Kərimov bu haqda yazırdı: *"Əlyazmalar dünya əhəmiyyətli qiymətli xəzinədir. Onlar olmadan nə ədəbiyyatı, nə tarixi, xüsusilə də elmin tarixini öyrənmək mümkün deyil"* (Понарина, 2018). İctimai-mədəni və siyasi düşüncə tarixinin araşdırılmasında onların müstəsna önəmi vardır. Belə ki, Şəxsi arxivlərdə yalnız sahibinə deyil, başqa bir ziyalıya məxsus və elmi dövriyyəyə cəlb olunmayan materiallara da rast gəlinir. Uzun zaman Azərbaycanda qədim və orta əsrlərin əlyazmaları müxtəlif şəxslər tərəfindən və pərakəndə halda toplanmışdır.

Qeyd etmək lazımdır ki, son dövrə qədər milli-azadlıq hərəkatının görkəmli nümayəndələrinin, mühacir ziyalılarımızın indiyə qədər işıq üzü görməyən xatirələri, məqalələri nəşr edilərək elmi dövriyyəyə daxil edilir (Məmmədzadə, 2023: Rüstəmli (tərt.et), 2018). Bundan əlavə, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun həm Şəxsi arxivlər, həm də ümumi xəzinəsindən yeni tapıntılar üzə çıxarılmaqdadır. Belə ki, Əlyazmalar İnstitutunun ümumi xəzinəsində qorunan N.Yusifbəylinin "Təslim" hekayəsi onun ədəbi yaradıcılığının yeganə tam nüsxəsidir (Kərimov, 2018). Ə.Haqverdiyevin şəxsi arxivindən elmi dövriyyəyə yeni daxil edilən materiallar ədəbi-mədəni mühitin tarixini araşdırmaq üçün qiymətli qaynaqlardır (Səmədova, Bağırova (tərt.et), 2020). Fərqli

baxış və yanaşmaları nəzərə alarsaq, yenilənən elmi ədəbiyyat və yeni qaynaqlar əsasında milli oyanış ideyalarının tarixinin araşdırılması aktuallıq kəsb edir.

**Şəxsi arxivlərin tarixi tədqiqatlara cəlb edilməsinin zəruriliyi**

Azərbaycan milli şüurunun formalaşmasına tarixçiliyimizin üzləşdiyi bir sıra boşluqlar, yanlışlıqlar da öz təsirini göstərmişdir. Azərbaycan tarixinə baxışın təkmilləşdirilməsi, müstəqillik döneminin konsepsiyasının tam işlənməsi və bir sıra tarixi problemlərə ortaq türk tarixi prizmasından yanaşmaq üçün bu yanlışlıqlar və təhrif olunmuş məqamlar aradan qaldırılmalıdır. Bu problem birbaşa müasir dövrümüzlə bağlıdır. Uzun müddət milli ideologiyamızın konsepsiya şəklində formalaşdıran tariximiz, mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz digər ideologiyaların təxribatına məruz qalmışdır. İlham Əliyev haqlı olaraq vurğulamışdır: *"Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir"* (Əliyev, 2008). Ona görə də tarix elmi və tarixşünaslıq (tarixçilik) müasir dövrümüzdə artıq yalnız keçmişdə baş verən hadisələrin xronoloji ardıcıllığını və təsvirini ictimaiyyətə çatdırmaqla kifayətlənməməli, həm də müvafiq hadisələri təhlil etməklə onların ictimai quruluş təsirini, onda yaratdığı dəyişiklikləri, ən başlıcası isə, gələcək üçün düzgün nəticələr çıxarmağı bacarmalıdır. Keçmişlə müasirlik arasında milli irsi çuğlaşdıran tarix elmi, artıq nəinki ictimai-hunmanitar, həm də siyasi bir elm sahəsi olaraq, baş verən hadisələri həm mədəni, həm ictimai, həm də siyasi kontekstlərdən qiymətləndirməlidir. Bu baxımdan araşdırmaçılar müəyyən dövrə aid mövcud bütün qaynaqları dərindən təhlil etməli, onlarda yer alan faktların siyasi tarixi gedişata siyasi-ideoloji və ictimai-mədəni təsirlərini də nəzərə almalıdır.

Qaynaqlar isə ictimai-iqtisadi formasiyaların inkişaf dinamikasına uyğun olaraq, şifahi ədəbi nümunələrdən başlayaraq yazılı sənədli materiallara qədər təkamül yolunu keçmişdir. Ədəbi əsərlərin tarixi materiallar əsasında yazılması artıq sınaqdan keçmiş və məlum elmi təcrübədir. Dünya tarixşünaslığında folklor nümunələri də daxil olmaqla, yazılı istər sənədli, istər bədii materiallar əsasında tarixin araşdırılması mikro tarix metodu adlanır. Məhz arxiv sənədləri əsasında tarixçılık "böyük tarix" anlayışına qarşı daha əvvəl nəzərə alınmayan kiçik miqyaslı faktları da ön plana çıxarır. Bu metod çox zaman adi və ya "kənar" qaynaq kimi qələmə verilən arxiv sənədləri, fərdi gündəliklər, məktublar, məhkəmə sənədləri, şəkillər və digər qeyri-rəsmi sənədlərdən istifadə etməyə üstünlük verir. Əslində bu qaynaqlar tarixçilərə toplumun yaşadığı tarixi təcrübəni daha yaxşı anlamağa və işıqlandırmağa kömək edir. Belə ki, tarixi qeydlərin və rəsmi qaynaqların məhdud olduğu məqamlarda bu metod daha etibarlı yanaşma sayıla bilər, daha subyektiv və fərdi yanaşmaları da nəzərə almış olar. Fikrimizcə, tarix elmi yalnız böyük hadisələr və məşhur şəxsiyyətlərin fəaliyyətinin təhlili ilə məhdudlaşmır. Əksinə, hər bir fərdin və ya kiçik qrupun tarixdəki rolu nəzərə alınmaqla tarixi nəzəriyyələri və ümumi təhlilləri daha dərin və geniş bir tarixi miqyasda təqdim etmək mümkündür. Bu yanaşma siyasi-ictimai tarixə dair tədqiqatlarda toplumun müxtəlif qruplarının fəaliyyətinə də əsaslanaraq iri miqyaslı tarixi proseslərin kiçik məqamlarını belə geniş anlamağa imkan verir. Tarixin və tarixçiliyin ən böyük bəlası obyektiv faktları subyektiv şərh etməkdədir. Açıq-aşkar olan faktları görməzdən gələrək, eyni ilə sovet tarixçiliyində olduğu kimi ayrı-ayrı tədqiqatçıların şəxsi və subyektiv fikir və şərhlərini ictimaiyyətə təlqin etmək, elmi yanlışları daha da artıra bilər. Belə ki, görkəmli dramaturq M.F.Axundovun ateist deyil, məhz islam dini əleyhinə olan fikriləri şəxsi arxiv sənədləri və yaradıcılığında tam əskini tapmışdır. Bunu olduğu kimi qəbul etmək və obyektiv yanaşmaq, görkəmli mütəfəkkirin Azərbaycan ədəbi-mədəni tarixində xidmətlərinin heçə sayılması demək deyildir. İslama münasibəti görkəmli mütəfəkkirin şəxsi fikirləri idi və hər bir İnsanın fikirləri və yanaşmasına hörmət edilməlidir. Belə ki, materialist fəlsəfənin bütün nümayəndələri müqəddəs varlığın mövcudluğunu şübhə altına aldıqlarına rəğmən, onların adı dünya fəlsəfə tarixindən silinməmişdir.

Ümumiyyətlə, Azərbaycan tarixçiliyində Sovet dövrü ideoloji təfəkkürün və milli tarix anlayışının formalaşmasına əhəmiyyətli təsir etmişdir. Sovet konyukturasının təsirinin ən mühüm

amili tarixin mərkəzləşdirilmiş yanaşma ilə yazılması, sinfi mübarizə və sosializm quruluşu prinsiplərinin üstünlük təşkil edilməsidir. 1991-ci ildən sonra isə tarix elmində milli kimliyin, dövlətçilik ənənələrinin və mədəni irsin tədqiqatı üzrə elmi araşdırmaların aparılmasına imkan yaranmışdır. Bu isə tarixi qaynaqların ən mühüm hissəsi olan arxiv araşdırmalarının genişlənməsinə, Azərbaycan tarixçiliyində daha obyektiv yanaşmaların formalaşmasına, milli tariximiz yazılarkən tarixi hadisələrin yalnız siyasi və hərbi deyil, həm də sosial, iqtisadi və mədəni aspektlərdən də araşdırılmasına imkan yaratmışdır. Nəticə etibarilə tarixi proseslərin müxtəlif məqamlarının daha geniş mənzərəsi yaranır, müxtəlif şəxsiyyətlərin fərdi dünyagörüşü və fikirlərinin bu proseslərə mühüm təsiri olduğu anlaşılır. Bütün bu sadalananlar şəxsi arxivlərin elmi tədqiqata cəlb edilməsinin zəruriliyini bir daha sübut edir.

### Şəxsi arxiv materiallarında milli hərəkatın müxtəlif tarixi dönəmlərinin əksi

Azərbaycan milli hərəkatının inkişaf tarixi araşdırılması ziyalıların ədəbi-mədəni irsini tədqiqata cəlb etmədən mümkün deyil. Çünki həm fikir, həm də siyasi tarixdəki yeniliklərin memarları, ilk siyasi partiya və dərnəkləri, xeyriyyə cəmiyyətlərini yaradan, irtica illərində zülmə qarşı çıxış edən yenə də ziyalılar olmuşlar. Buna görə də ədəbiyyatşünas alim Yaşar Qarayev haqlı olaraq hesab edir ki, *Azərbaycan ziyalılarının ədəbi-bədii yaradıcılığında əks olunan ictimai fikir həmin dövrün bədii sənədləri sayılmalıdır* (Saləddin (tərt. et.), 2005: s. 6).

Son dövr araşdırmalarının nəticəsi olaraq, Azərbaycanda milli ideyaların formalaşmasının ilkin dövrü kimi XIX əsrin son rübü, Azərbaycan dilində dövrü mətbuatın əsasının qoyulması, "Əkinçi" qəzetinin nəşr olunması ilə isə milli hərəkatın ilk dövrünün başlanması qəbul edilir. Lakin milli oyanış ideyalarının formalaşması xalqın, millətin hər bir fərdinin etnik kimliyi barədə özünə sual verməsindən, özünü tanımasından, tarixi keçmişini bilməsi və tədqiq etməsi ilə, tarixini öyrənməsi ilə başladığını nəzərə alarsaq, Azərbaycanda milli oyanış ideyalarının formalaşmasını və milli azadlıq hərəkatının başlanmasını 1875-ci ildən önə çəkməliyik. Belə ki, "Əkinçi"dən 35 il öncə Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri (1841) Azərbaycan tarixşünaslığının əsasını qoymuş oldu. Bunun ardınca Mirzə Fətəli Axundovun fanatizm, nadanlıq və qəfləti tənqidi ilə mədəni tərəqqiyə xidmət edən komediyaları (1850-1855), Seyid Əzim Şirvanının ana dilli yeni üsullu "Məclis" məktəbi (1870), Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun yaratdıqları ilk milli teatr (1873) milli oyanışın ilk çağırışları idi. "Əkinçi" isə artıq başlamış mücadilənin ilk bəhrəsi və rəsmi qələbəsi idi. Fikrimizcə, bütün bunlara əsasən milli hərəkatın başlanğıcı olaraq elə Rusiya işğalının ilk illərini qəbul etmək mümkündür. Belə ki, *"XIX əsrin ibtidasında rus istilasına məruz qalan Azərbaycanda 1879-1830-cu sənələrinə qədər davam edən müqavimət və siyasi mücadilə XIX əsrin ilk yarısından sonra hərsi bir mücadilə, milli-mədəni bir müqavimət və iqtisadi bir rəqabət şəklini almışdı"* (Məmmədzadə, 2023: 419). Tarixçi S.Əliyarlının fikrincə isə, təəssüflər olsun ki, *XX əsr Azərbaycan tarixşünaslığında Rusiya qoşunlarına qarşı xalqın dirəniş hərəkatı bir konsepsiya kimi rədd edilmişdir* (Əliyarlı, 2012: s. 96).

Bildiyimiz kimi, XIX əsrin sonlarında Rusiyada yaşayan müsəlman türklər arasında maarif və mədəniyyət sahəsində yaranan yeniləşmə hərəkatı cəddiçilik adını almışdır. Tarixi ədəbiyyatda "cədid" kəlməsinin ilk dəfə tarixi və siyasi ədəbiyyata 1899-cu ildə İsmayıl bəy Qaspıralının Krımda təsis etdiyi Üsul-i Cədid məktəbləri ilə daxil olduğu iddia olunur. Rusiya imperiyası tərkibinə daxil edilən türk xalqlarının yeni üsula malik ilk təhsil ocağı 1870-ci ildə Azərbaycanın Şamaxı şəhərində Seyid Əzim Şirvani tərəfindən təsis edilmişdir. S.Ə.Şirvani H.Zərdabiyə yazdığı bir məktubunda oğlunun rus dilindən ikrah duyduğunu və Mir Cəfərin öz türk lisanında oxumağın daha asan olduğunu bildirdiyini yazırdı (Şirvani, 1876: v.1). Bunun ardınca 1892-ci ildə Ordubadda və 1894-cü ildə Naxçıvanda Məhəmməd Tağı Sidqi, 1895-ci ildə Şuşada Mir Möhsün Nəvvab, 1896-cı ildə isə Lənkəranda Mirzə İsmayıl Qasir tərəfindən açılmışdır. Fikrimizcə, XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər yenilənmə hərəkatı hələ tam təşkilatlanmamış və çox zaman fərdi xarakter daşıdımışdır və "*cəddiçilər arasında bütün Rusiya türklərini əhatə edəcək miqyasda bir proqram halında inkişaf etdirən İsmayıl bəy Qaspıralı olmuşdur. O, coğrafi uzaqlıqları, ləhcə və məzhəb*

*fərqlərini, regionolizm və qəbiləçiliyi nəzərə almadan "Tərcüman" qəzetinin baş şüarı olaraq "Dildə, fikirdə, əməldə birlik" düsturu ilə Rusiya türklərini tam bir birliyə dəvət etmişdir"* (Hablemitoğlu, 1997: s. 23).

Bu baxımdan A.Bakıxanovun şəxsi arxiv materialları arasında yeni məktəb layihəsi xüsusi maraq doğurur. A.Bakıxanovun məktəb layihəsini yeni üsullu məktəblərin təsisi yolunda ilk addım saymaq olar. Yəqin ki, bu layihə təsdiq olunmadığı üçün tədqiqatlara cəlb olunmamışdır. Tədqiqatçılardan yalnız H.Əhmədov A.Bakıxanovun tərtib etdiyi məktəb layihəsinin eyni adlı tədris ocaqlarının təşkilinə təsirinin olduğunu qeyd etmiş (Əhmədov, 2001: s. 88), İ.Vəzirova isə Bakıxanovun məktəb layihəsi haqqında məlumat verərək bildirmişdir ki, *"yeni siyasi mühütün tələblərinə uyğun sivil məktəblər və yeni tipli dərsliklər hazırlamaq niyyəti ilə A.Bakıxanov maarifçilik işinin təməlini qoyur". Bu məqsədlə A.Bakıxanov "20 fevral 1832-ci ildə "Müsəlman məktəbinin təsisi haqqında layihə" hazırlayır"* (Vəzirova, 2015: s. 315-316). B.Əziz ilk məktəb layihəsinin A.Bakıxanov tərəfindən irəli sürüldüyünü qeyd etsə də, onun tarixi əhəmiyyəti haqqında fikrini bildirməmişdir (Əziz, 2020: s. 68-69).

Bakıxanovun məktəb layihəsinin qəbul edilməməsinə baxmayaraq, 1845-ci il avqust ayının 3-də Qafqaz canişini Vorontsovun dəftərxana rəisi Safonovun A.Bakıxanova göndərdiyi 31 iyul 1845-ci il tarixli 1160 saylı məktubunda *"bu sahə haqqında təcrübə və geniş biliklərə malik olduğu üçün" "Tiflisdə şiə məzhəbindən olan müsəlman uşaqları üçün ilk məktəbin təsis edilməsi"* layihəsinin *"ətraflı olaraq incələyib öz fikrini bildirməsini"* üçün ona göndərildiyini bildirmişdir (Ениколопов, 1949). Hər iki layihə incələndikdə aydın olur ki, ikinci layihə cüzi dəyişikliklərlə birincinin eynidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk yeni üsullu məktəbin yaranma tarixi və harada açılması ilə bağlı mənbələrdə müxtəlif məlumatlarla üzləşirik. Belə ki, Ö.F.Nemanzadə xatirələrində yazırdı: *"1894-1896-cı illərdə fəaliyyət göstərən Şəki Maarif cəmiyyəti Qafqazda ilk dəfə olaraq üsuli-cədid üzrə türk, nizamlı bir məktəb açdı... Bütün Qafqazda birinci dəfə olaraq açılan bu dürlü, nizamlı milli bir məktəb Şəki ziyalıları üçün bir fəxr ola gərək. Çünki böglə milli bir türk məktəbi hökumətin yürütdüyü politikaya təmamilə zidd idi"* (Nemanzadə: v. 45-46). Ö.F.Nemanzadə qeyd edirdi ki, yeni məktəbin açılmasına rəsmi icazə alınması üçün Şəki ziyalılarının tərtib etdiyi dərs proqramında *"dini dərslərin çoxluğu, hələ bu rus dilinin bulunması, hökumətə verilən proqramda tarix dərsinin olmaması hökuməti bir o qədər şübhələndirməmişdi"* (Nemanzadə: v. 51).

Bu faktlar ümumiyyətlə türk xalqları tarixində üsulu cədid məktəblərinin tarixinin yenidən araşdırılmasını zəruri olduğunu göstərir. Tədqiqatçı S.Süleymanova haqlı olaraq yazır ki, *"İ.Qaspıralı "Tərcüman"ın 1901-ci il 40-cı sayına əlavədə nəşr etdirdiyi "Məbadi-Təməddün İslamiyün Rus" (Rusiya Məhəmmədilərinin mədəni başlanğıcı) məqaləsində fəxrlə bildirir ki, Rusiyanın olduqca geridə qalmış müsəlman təbəələri arasında mənəvi intibah nəzərə çarpır... elə buradaca yeni təhsil üsulu – üsuli-cədiddən, onun üstün cəhətlərindən söhbət açan müəllif, ilk dəfə belə məktəblərin 1884-cü ildə Bağçasarayda fəaliyyətə başladığını göstərir. Halbuki, belə məktəblər Azərbaycanda xeyli əvvəl açılmışdı"* (Həbibbəyli, Seyidbəyli (red.), 2019: s. 258).

H.Zərdabiyə yazılmış bir məktubun müəllifi qeyri-millətlərin mütaliə və elmə olan həvəsləri haqqında nümunələr gətirir və qeyd edirdi ki, bütün elmlərin qapısının Şərqdən açılmasına rəğmən bu gün Şərqin bu qədər geri qalmasının səbəbi xalqın mütaliə etməməsindədir: *"... bu günlərdə Peterburqdan gələn bir qazeti oxudum, imperator əzimə pişnəhad olan bir... təğrirə görə gərək bu 1876 sənənin sentyabrın əvvəlində Şərq elmlərinə və dillərinə və tarixlərinə səvadları olanlar Peterburqda bir məclis edib Sibir və Tatarıstan və Qafqaz və Məvərayi-Qafqaz və Çin və Yapon və Hindistan və İran və Türküstan və Ərəbistan üstündə mərəkələr etsinlər. Hər adəm öz elmini və öz hünər və qabiliyyətini ustadlar yanında göstərib dövlətdən böyük ənam ala bilər... türki və farsi və ərəbi dilləri və elmləri və tarixləri üçün bir söz yoxdur. Aya bizim elm sahibi mirzələrdən neçə neçəsi gedüb Peterburqda və ya Moskovada və Kazanda bir müddət də rus dilinə təmam aşina olandan sonra Şərq, yəni farsi və türki və ərəbi dillərinə və elmlərinə professor, yəni böyük ola bilər idi, əmma edən yox, nə fayda..."* (Apraham: v.1) Təəssüf ki, bu həqiqətləri qeyd edən ziyalılar, cəmiyyətdə geriliyi doğuran siyasi səbəbləri açıqlamaqda aciz idilər. Əhalisinin əksəriyyətinin türk-

müsəlmanlardan ibarət olmasına rəğmən, Qafqazda qeyri-millətlərin mədəni tərəqqisi üçün hakimiyyət dairələri tərəfindən lazımi şərait yaradılır, bununla bağlı bütün müraciətlər müsbət cavablandırılırdı. Belə ki, hələ 1859-cu ildə Şuşada yaşayan ermənilər ictimai qiraətxana açmaq haqqında müraciətdə xüsusi olaraq vurğulayırdılar: *"Qiraətxananın açılması erməni və rus dillərində həm tarixi, həm də başqa müasir ədəbi kitablarla, xaricdə nəşr olunan qəzet və jurnallar, məşhur ədiblərin müxtəlif əsərləri ilə tanış olmaq üçün lazımdır"* (Зардаби, 1901).

Görkəmli maarifçi və pedaqoq M.T.Sidqinin şəxsi arxivi demək olar ki, tədqiqata cəlb olunmamışdır. M.T.Sidqinin şəxsi arxivindəki materiallarda onun ana dili, mətbuat, milli birliklə bağlı qiymətli fikirləri ilə tanış oluruq. M.T.Sidqi S.M.Qənizadə ilə "Şərqi-rus" qəzeti haqqında yazışmasından sonra mətbuat haqqında fikirlərini qələmə almışdır. Sidqi bu yazısında dünya dillərində nəşr edilən müxtəlif qəzetlər, təkcə Avropa deyil, həm də Şərq ölkələrinin məcmuələrində dərc olunan maraqlı məqalələr haqqında geniş və hərtərəfli məlumat vermişdir. M.T.Sidqi toplumun müxtəlif təbəqələrinin, hətta bəzi maarifpərvər ziyalıların da qəzetə laqeyd münasibətinə cəmiyyətin təəssüf edir və bildirirdi ki, xalqı indiyə kimi istifadə etdiyi Şərq dillərindən dərhal və birdəfəlik imtina etməyə təşviq məqsədəuyğun deyil. M.T.Sidqi bu yazısında "türk oğlu türk", "öz türki dilimizdə" ifadələrinə müraciət edərək yazırdı: *"Və əgər olursa da türki dilimiz ilə bir lisani-lətafət asan və ---- lisemdir ki, abadi-əcdadımızdan gəlib bizlərə yetişənədək hər əsrin təğazasınca və hər qitə əhalisinin istilahınca münasib libasilə züyurlənibdir"* (Sidqi: v.5). Fikrimizcə, dövrü nəzərə alarsaq, Sidqi haqlı idi. Belə ki, ana dilində mətbu orqanların nəşrinə və normal fəaliyyətinə imkan verilmədiyindən uzun illər "Fars Gülüstanından güllər yığıb və ərəb Bustanından sünbüllər" əldə edən bir xalq Şərq dillərində nəşr olunan mətbuatı mütaliə edə bilərdi. Uzun sürən tarixi bir dönəmdən sonra xalqın dərhal yalnız Avropa dillərində və ya rusca mütaliə etməsi imkan xaricində idi. Zaman sübut etdi ki, həqiqətən də bütün keçid prosesləri təbii yolla inkişaf edərsə, daha arzuolunan nəticələr əldə etmək mümkündür. M.T.Sidqinin fikrincə, məhz bu amilə dayanaraq, Şərq dillərindən dərhal imtina etmək düzgün deyildi.

M.T.Sidqi rus dilində olan qəzetlərin də Azərbaycan xalqı və cəmiyyətin rifahı yolunda xidmətlərini inkar etmirdi: *"Neçə illərdir ki, Kaspi qəzetəsi... rus lisanında olduğu üçün müsəlman aləminə bir para xoş nəzərilə baxmayanlara və müsəlmanlar əleyhində bəzi şübhə əfza töhmətəngiz yazılan yalan xəbərlərə dövlət dili ilə cavab verib, biz Qafqaz müsəlmanlarının dövlətə və vətənə olan hüsni-sədaqətimizi isbat edib, hökumət nəzərinə yetiribsən"* (Sidqi: v.3).

Dövrü mətbuatın cəmiyyət həyatında tutduğu yeri açıqlayan M.T.Sidqinin fikirləri tamamilə H.Zərdabinin fikirləri ilə eyni idi. M.Sidqi mətbuatın cəmiyyət həyatında tutduğu yeri olduqca yüksək qiymətləndirirdi: *"Qəzetənin mühəssənatı və əhəmiyyəti çox çoxdur... Cəridə bir müəllimi-səyyar və bir müsafiri təyyardır ki, hər məkanda və hər loğmədə olan üləmanın elmini, obanın ədəbiyyatını şüəranın əşarını, nətayic və əfkarını keçmiş millətlərin və dövlətlərin inqiraz və istiqlalını zəhmət və ücrətsiz sənə təlim edər... Cəridə bir ədibi-süxənsənc və ustadi-sinəgəncdir ki, kitabxaneyi-dünyadan əhvali-aləmə dair təşkil edib və ülumü fünundan vərəq-vərəq dərslər hazırlayıb münşilərə, tələbələrə, şagirdlərə təqdim edir"* (Sidqi: v. 5).

Ümumiyyətlə, M.T.Sidqinin şəxsi arxivinin tədqiqata cəlb olunmuş materiallarındakı milli və maarifpərvər fikirləri dövrünün bütün ədəbi-ictimai mühitinə şamil etmək olar. Onun M.Şahtaxtinski, Ə.Topçubaşov və Ə.Ağayevə ünvanladığı məktubundan bəlli olur ki, XX əsrin əvvəllərində bu üç məşhur şəxsiyyətin arasında fikir ayrılıqları zəminində ixtilaflar baş vermişdir. Səbəb isə "Şərqi-Rus" qəzetində Hacı Zeynalabdin Tağıyev haqqında dərc olunan məqalə olmuşdur. Qeyd etmək lazımdır ki, bu məqalə haqqında məlumata digər arxiv materiallarında da rast gəlirik (Мирзоев). Baş verənlər Sidqini olduqca narahat etmişdi. O bu hadisələrdən kənarda qalmamış, hər üç ziyalının, həmçinin H.Z.Tağıyevin millətin rifahı uğrunda xidmətlərini və mücadiləsini yüksək qiymətləndirərək yazırdı: *"İnsaf deyil ki, bu XX əsrdə Məhəmməd ilə Əhməd və Əlinin mabeyinlərində xüsumət vaqe olsun. Bundan əlavə indiki bu münəvvər əsrimizdə bəni noyi-bəşərin əfkarın sülhi-ümumi məsələsi doğulur. Bu surətdə cəngi-xüsusi və nizayi xanəgi nəyinizə lazımdır. Gəl sülh edəlim cəng və xüsumət nə gərəkdir?"* (Sidqi: v.4) Buradan aydın olur ki, M.T.Sidqi fərqli düşüncəli şəxslərin belə millətin rifahı

uğrunda birliyinin zəruri olduğunu təbliğ etmişdir. Cəmiyyətin müxtəlif dillərdə təhsil alan ziyalıları arasında formalaşan fərqli düşüncə və hadisələrə yanaşma tərzi getdikcə dərinləşən ziddiyyətlərə səbəb olduğundan və bu ixtilafların gələcəkdə yaşadacağı ağır nəticələri öngörən M.T.Sidqi mətbuat xadimlərinin timsalında bütün xalqı birliyə çağırırdı: *"İndi cənab Hacı və hamı münsiflər bir əqidə və bir lisan ilə hər üçünüzə üz tutub: bundan sonra nə Kaspidə, nə də Şərqi-Rusda bu günə məlal gətirən və küdurət artıran bəndlər nəşr olunmasın. Qonşularımızın hərəkətlərindən ibrət alayım. Qəzetə yazan və qəzetə oxuyan, xüsusən "Kaspi"də və "Şərqi-Rus"da bəndləri oxuyan sairlərdən xəcalət çəkəlim"* (Sidqi: v. 3).

Şuşanın məşhur Nəsirbəyovlar ailəsinin nümayəndəsi və çar ordusunun polkovnik-leytenant rütbəsinə qədər yüksələn Muxtar bəy Nəsirbəyovun fikrincə, *"hər bir tayfə öz ata telinə, məzhəbinə və adabi-şəriətinə fəxr edib dünyadə zindəganlığa məşğul oldu"* (Nəsirbəyov: v.2). Muxtar bəy H.Zərdabi kimi, hər bir millətin dili, dini və adət-ənənələri sayəsində mövcud olduğu və yaşam uğrunda başlıca olaraq bu amillərə dayanaraq mücadilə edə biləcəyindən əmin idi. O yazırdı ki, başqa ölkələrdə təhsil alan maarifpərvər müsəlman ziyalıları da öz kimliklərini unutmamalı və millətin rifahına xidmət etməlidirlər. Muxtar bəy haqlı olaraq, qeyd edirdi ki, millətin əsas bəlası ondadır ki, əvvəla, bəzi ziyalılar təhsil aldıqdan sonra öz dini etiqadlarından imtina edir, ikincisi, başqa millətlərin məişətinə üstünlük verir, üçüncüsü, başqa millətlərin həyatını təqlid etməyə çalışırlar. Bu xüsusiyyətlərin isə əsasən dövlət qulluğunda çalışan məmurlara xas olduğunu bildirirdi: *"Bəziləri, məsələn Türküstan vilayətində sakin olan tatarlar, yəni dövlət xidmətində olanlar bir dərəcədə öz məzhəblərini unudurdular ki, həmin bircə ad qalıb..."* (Nəsirbəyov: v.3) M.Nəsirbəyovun fikrincə, maarifpərvər ziyalılar türk-müsəlman aləmini bürüyən hərc-mərclikdən xilas olmaq üçün bu səhvlərdən nəticə çıxartmalı və sadalanan qüsurları aradan qaldırmalı idilər.

Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olan Süleyman Sani Axundov xalq arasında yad mədəniyyətlərin təsirinin artmasından narahat idi və eyni fikirlərlə çıxış edərək yazırdı: *"...Hacı Zeynalabdin qız məktəbini bina eylədi. Dünyada bir murdar ad qalmadı ki, Bakı camaati o məktəbə qoymasın... Bir müddət keçdi Bakı şəhər idarəsi müsəlman qızları üçün bir məktəb açdı. Məktəb açılan günü ağzınadək uşaq ilə doldu. Bir il keçdi, ikinci məktəb açıldı və o da doldu. Bir il də keçib, üçüncü məktəb açılıb, həmçinin doldu... İndi izn verin bir söz soruşum. Əvvəlcə Hacı Zeynalabdinin örtülü məktəbinə qız verməyib, indi qızlarının əllərinə kitab verib açıq şkolaya göndərən ağalar nə tərəfdarıdırlar?"* (Axundov, 1914: v.2) Qeyd etmək lazımdır ki, qadın hüququ və təhsili məsələsi Azərbaycan milli oyanışının mühüm hədəflərindən biri idi. S.S.Axundov qadın təhsili haqqında yazırdı: *"Biz nə qədər danışaq, nə qədər uğraşaq zəmanə öz işini görəcək və övrət məsələsini də layiqincə həll edəcək. Necə də ki, edir. İldə bizə 600 ana verən haman zəmanədir. Ona görə övrət məsələsini bir yanda zəmanəyə və bir yandan da övrətlərin özlərinə vaqoraz etməliyik"* (Axundov, 1914: v.4).

Bakı şairi A.Buzovnalı qeyri-mətbu bir şeirində millətin gələcəyinin onu dünyaya gətirən və yetişdirən qadına borclu olduğu, qadınların mədəniyyət və savadından asılı olduğu, qadının cəmiyyətin rifahında mühüm yer tutduğu qeyd etmişdir:

*Qızlara elmilə kəmal gərək...*
*Gələcəkdə şu gördüyün qızlər,*
*Şübhəsiz hər biridi bir madər.*
*Elm kəsb etsə nikbəxt olacaq,*
*Edəcək Şərqi gün kibi rövşən* (Bağırova (tərt. et.), 2025: s.41-42).

Azərbaycanın tanınmış ziyalısı Y.V.Çəmənzəminli Bakı Realnı məktəbinin şagirdi olduğu illərdə millətin gələcək tərəqqi və azadlıq təməlinin təlim-tərbiyə, yəni maariflənmə yolu ilə qoyulduğunu, qadın təhsilinin bunun mühüm bir istiqaməti olduğunu qeyd edərək yazırdı: *"Öz doğmalarını sevməyən bir kəs, heç bir zaman başqalarını sevə bilməz; imkanı olduğu halda qardaş və bacılarının təlim-təhsilini düşünməyən insan heç bir zaman özünü rifah və tərəqqi, təbii olaraq*

*azadlıq və mənəviyyat tərəfdarı adlandıra bilməz"* (Çəmənzəminli, 1907/1908). Bəzi ziyalıların fikrincə, Azərbaycan cəmiyyətinin demək olar ki, bütün təbəqələrinin siyasi fəaliyyət qadağası ilə üzləşməsi ilə yanaşı, *"əfsus, 100 min dəfə əfsus ki, vətən övladları Vətənin qədrini bilməyirlər. Onun nemət hüququnu tanımayırlar. İstiqlaliyyət və gələcək haqqında fikir yürütmürlər. Vətənin ətrafına möhkəm səddlər çəkmirlər, ətrafını möhkəm etməyirlər"* (Sidqi, 1902: v.1). Azərbaycan xalqının üzləşdiyi milli zülmün dəfələrlə baş qaldıran narazılıqlara rəğmən, hələ üzün bir dövr sürəcəyini öngörən Azərbaycan ziyalıları qeyd edirdilər ki, *"biz əhli-şimalız, yerimiz cənnət-məkan bir yerdir. Xuda hər neməti bizə əba etmişdir. Lakin biz bir mərəzi-bidərmanə mübtəla olmuşuq... Elə ki, elçılər dərdlərinin çarəsini bildilər... balta, bel, kürək, ling və qeyri-alət götürüb dağıtdılar və kövkəbi-hürriyyətin üzü açıldı... Lakin şadlıqları artıq dəvam etmədi. Bir müddət keçərək qara buludlar kövkəbi-hürriyyətin üzünü tutub yenə pünhan etdi"* (Axundov, 1906: v.3).

XX əsrin əvvəllərindən milli hərəkatın sinfi-siyasi tələbləri və milli oyanış ideyalarının təkamül dövrünün müddəaları Azərbaycanda milli azadlıq hərəkatının inkişafında siyasi-inqilabi dönəmin başlanğıcı oldu. Ə.Müznib kimi ziyalıların ictimai hüquqların qorunması və sosial ədalətin bərpa olunması uğrunda *"Burasını dürüst düşünməliyiz ki, milli-Rusiyəni və o cümlədən biz müsəlmanları əsirlik və zalim boyunduruğundan xilas edən iki firqədir. Əvvəlinci, ərbabi-qələm və əhli elm. İkinci felə kəsb sənət və ziraətkarlar. Əvvəlimciləri bu işə vadar edən onların biliyi, elmi, mürvəti, insafı, insaniyyət, ədalət və müsavatpərvərliyi olub. İkimcilər isə, onları da vadar edən hökumət, sabiqədə olan cüz və zülmdən çəkdikləri əziyyətdir"* (Müznib, 1905: v.4) xarakterli çağırışları nəticələrini veririrdi. Ə.Müznibin fikrincə, *"əsil millət... kəsb və sənət və ziraətkarlardan ibarətdir. Bunlar nərəyə gedərsə millət də oraya gedər. Bunlar nə istərsə millət də onu istər. Bunlardır alimləri dolandıran, xəzinələri milyonlarla dolduran. Bunların alınlarının tərləri və əllərinin qabıqlarıdır, lakin bununla bərabər sənət adamları, ələxüsus müsəlmanlarınkı hər yerdə məzlum və zəlildir"* (Müznib, 1905: v. 2). Görkəmli publisist, milli azadlıq hərəkatının tanınmış nümayəndələrindən biri Ə.Müznib Sibirdən göndərdiyi məktubunda xalqın acınacaqlı halını belə təsvir edirdi: *"Əfəndim, nə səbəbdən böylə olur, nə cəhətlə ixtiyar və güc sahibləri ixtiyarsız və gücsüzlərə etina etməyir? Bəlkə, mövqe düşdükcə, biqədril-məqdur, silahla, şallaqla, yumruqla, dil ilə, qələm ilə, hətta naz-qəmzə ilə əzirlər??? Amma cənabınızdan iləri piri-xürd böylə bir insafsız cavab verdi!*

*Həqmi qalib, gücmü qalibdir kibi bir məsələ*
*Əsrlərlə talğalı dəryayi-fikrətdə yüzür.*
*Müzniba! Tərdid etmə! Al cavabın, sakit ol,*
*Güc avəri-haqdir, həmişə qalibiyyətlə gəzir"* (Adilov, 1990).

Cəmiyyətdə baş verən hadisələri yaxından və diqqətlə təqib edən A.Buzovnalı milli birliyə səsləyən bir şeirində yaşadığı dövrün siyasi xarakteristikasını təqdim etmişdir. Məlum olduğu kimi, nəzərdən keçirilən dövrün xarakterik xüsusiyyətlərindən biri xalqın kütləvi olaraq informasiya blokadasında saxlanması olduğundan ədəbi mühitin kütlənin maariflənməsində rolu olduqca böyük idi. Həmin dönəmlərdə ədəbi yığıncaqlar və məclislər təşkil olunurdu ki, burada qeyri-mətbu ədəbi əsərlər müəllifləri tərəfindən xalqa çatdırılırdı. Reallıqları əks etdirən bu əsərlərin xalqın milli təfəkkürünün düzgün istiqamətləndirilməsində xüsusi önəmi var idi. A.Buzovnalı qeyd olunan əsərində Rusiyada 1917-ci ildə baş verən Fevral inqilabının millətin qarşısında açdığı imkanları belə açıqlamışdır:

*... Nagəhan məşriqi-ümidimiz oldu rövşən,*
*Sanki xurşidi tulu etdi şəbi-yəldadə.*
*... Mehri-rövşəndili azadəlik oldu zahir,*
*... Şükürlər həzrəti-həqqə ki, içdiyi qan,*
*Bəzmi-işrət qurub onlar ki, içərdi badə* (Bağırova (tərt. et.), 2025: s.171).

İnqilabın gətirdiyi fürsətlərdən düzgün yaralanmağa çağıran A.Buzovnalı xalqı buna mane olacaq qüvvə və fəlakətlər haqqında da xəbərdar edirdi. O, qeyd edirdi ki, keçmiş hökumətin məğlub olması bizi arxayın etməməlidir. Şair türk xalqlarının düşməninin təkcə mütləqiyyət quruluşu deyil, ümumiyyətlə Rusiyanın olduğunu dərk edir, qədim Qafqazın gələcəyinin millətə, millətin gələcəyinin isə Qafqazın azadlığına bağlı olduğunu bildirir və millətin bütün tərəqqipərvər qüvvələrini vətənin tam azadlığı uğrunda mübarizəyə çağırırdı:

*... Kimdə ki hifzi-vətənü millətə vardır qeyrət,*
*... Qoymayın bir də ölkəyə istibdadi* (Bağırova (tərt.et.), 2025: s.173).

Təkcə Azərbaycanı deyil, bütün Qafqazı gözləyən təhlükədən bəhs edən A.Buzovnalı xalqı və onun aparıcı qüvvəsini illər uzunu sürən istibdadın yenidən bərqərar olması təhlükəsi qarşısında bütün ixtilaflara son verməyə və birliyə çağırırdı:

*... Həmvətənlər, eşidin guşi-dil ilə sözümü,*
*Sanmayın bunları bifaidədir, əfvahi.*
*Müttəfiq olmalıyız, müttəfiq! Ey əhli-vətən!*
*Həmvətənlər! Edirəm bu söz ilə xətmi-kəlam,*
*İttihad olmasa gəlməz ələ azadi-təmam* (Bağırova (tərt. et.), 2025: s.174-176).

Nümunə gətirdiyimiz şeir Azərbaycan ədəbi-mühitində milli təfəkkürün əsas istiqaməti haqqında fikir yürütməyə imkan verir. A.Buzovnalı adı ədəbiyyat tarixində yer almayan, yaradıcılığı yalnız XXI əsrdə geniş tədqiqata cəlb olunan şairlərimizdəndir. İlk nəzmlə yazılmış qədim türk qəhrəmanlıq dastanı "Oğuznamə"nin müəllifi olan A.Buzovnalının milli hərəkatda birbaşa iştirakı haqqında faktlar olmasa da, yaradıcılığı ilə milli oyanış ideyalarının inkişafına və təbliğinə xidmət etdiyi aşkardır. Fikrimizcə, A.Buzovnalı kimi heç bir siyasi partiyanın fəaliyyətində yer almayan bir ziyalının milli-siyasi düşüncələri əsasında həmin dövrün ziyalı təbəqəsinin milli təfəkkürü haqqında ümumi fikir yürütmək mümkündür.

**Nəticə**

Milli oyanış ideyaları hər bir xalqın milli təfəkkürü və milli dirçəlişinin başlıca amili və təməlidir. Müsəlman-türk dünyasında özünəməxsus yeri olan Azərbaycanda XIX əsrin I yarısında təşəkkül etməyə başlayan milli oyanış ideyaları inkişafa və yeniliyə meylli olması ilə səciyyələnir və öncə maarifçilik hərəkatında, sonra mətbuatın yaranması ilə mətbu yazılarda, yeni üsullu təhsil ocaqlarının layihələrində, daha sonra isə ziyalıların ədəbi-mədəni yaradıcılığı və ictimai-siyasi fəaliyyətində təcəssüm olunmuşdur. Bu səbəbdən rus imperiyasının müstəmləkə siyasətinin əsas hədəfi, milli oyanış ideyalarının təşəkkülü və milli kimlik şüurunun formalaşmasının qarşısını almaq üçün yürütdüyü siyasətin əsas xətti düşünən beyinlərin məhv edilməsi olmuşdur.

Bütün bu sadalananlar bir daha sübut edir ki, milli oyanış və milli kimlik ideyalarının tarixi təşəkkülü və inkişafı prosesi geniş elmi ədəbiyyat və mədəni irs ilə yanaşı, şəxsi arxiv materialları əsasında da araşdırılmalıdır. Belə ki, şəxsi arxivlərdə milli oyanış ideyaları və milli hərəkat tarixçiliyinin bəzi məqamları ilə bağlı tədqiqata cəlb olunmayan və ya lazımi səviyyədə araşdırılmayan materiallar ilə üzləşmək mümkündür. Onlardan bəziləri müvafiq problemin tədqiqatında fərqli yanaşmanın tətbiq edilməsini zəruri edir. Şəxsi arxiv materialların incələnməsi məlum tarixi hadisə və proseslərin naməlum tərəflərini işıqlandırmağa, xalqların milli mədəniyyətinin müxtəlif cərəyanlarının müqayisəli təhlil etməyə imkan verir. Çünki bu bir xalqın mənəvi tarixinin özünəməxsus xüsusiyyətlərini, onları yetişdirən tarixi şəraitin mənzərəsini tam anlamda canlandırır.

## ƏDƏBİYYAT SİYAHISI


Adilov, M. Sibirdən məktub // Tarix. – 1990, 22 dekabr.

Axundov, S.S. *Kövkəbi-hürriyyət*. (1906). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 10, saxlama vahidi 42. 5 vərəq.

Axundov, S.S. *Qadın təhsili haqqında*. (1914-cü il). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 10, saxlama vahidi 61. 4 vərəq.

Apraham. *Adsız məqalə*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 145. 2 vərəq.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti (16 may 2017-ci il) / URL: https://president.az/az/articles/view/23701

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (15 fevral 2008-ci il) / URL: https://axc.preslib.az/az/page/KsMhB2iU7P

Həbibbəyli, İ., Seyidbəyli, M. (red.). *Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik*. (2019). Bakı: Elm və təhsil, 456 s.

Bağırova, K. (tərt. et.) *Azər Buzovnalı. Əsərləri*. (2025).IV kitab. Bakı: "Ecoprint", 460 s.

Saləddin, Ə. (tərt. et.) *Əhməd Cavad. Seçilmiş əsərləri*. (2005). Bakı: Şərq-Qərb, 295 s.

Çəmənzəminli, Y.V. *Gündəlik*. (1907/1908). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 21, saxlama vahidi 182. 1 dəftər.

Səmədova, N, Bağırova, K. (tərt.et). (2020). *Əbdürrəhim bəy Haqverdiyev arxivindən nümunələr (Əbdürrəhim bəy Haqverdiyev – 150)*. Bakı: Mütərcim,136 s.

Əhmədov, H. *Azərbaycan məktəb və pedaqoji fikir tarixi*. (2001). Bakı: "Təhsil" EİM, 320 s.

Əlioğlu*, P. Köçərli arxivinin didərgin taleyi*. Xəzər. – 2005, 31 avqust.

Əliyarlı, S. *Milli hərəkatımızın ilkin dönəmləri. Tariximiz. Açıqlanmamış mövzuları ilə*. (2012). Bakı: Mütərcim, 557 s.

Əziz, B. *Cümhuriyyətə gedən yol: milli-azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları*. (2020). Bakı: Çapar yayınları, 360 s.

İmanova, A. *Ə. Haqverdiyev: Nəşr edilməmiş əlyazmaları*. (2024). Bakı: Ecoprint, 288 s.

Kərimov, P. *Nəsib bəy Yusifbəylinin təslim hekayəsi*. (2018). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Azərbaycan əlyazmaları dünya kitabxanalarında II Beynəlxalq elmi-nəzəri konfransının materialları. Bakı: Elm və Təhsil. 161 s.

Məmmədzadə M. (2023). *Seçilmiş əsərləri*. Bakı: Elm və Təhsil, 612 s.

Rüstəmli, A. (tərt. et.). *Mirzə Bala Məmmədzadə. İstiqlal mücadiləsi.* (2018). Bakı: EkoPark, 448 s.

Müznib, Ə. *Qəzetənin məsləyi*. (1905). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 23, saxlama vahidi 106. 5 vərəq.

Nemanzadə, Ö.F. *Xatirələr*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 26, saxlama vahidi 12. 166 vərəq.

Nəsirbəyov, M. *Müsəlman maarifpərvərlərinin tüğyanı*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 4, saxlama vahidi 62. 4 vərəq.

Sidqi, M.T. *Məşədi Ələsgər ağaya məktub*. (1902). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 7, saxlama vahidi 25. 2 vərəq.

Sidqi, M.T. *Töhfeyi-Bənat. Qəzet, yainki qəzetə nədir?* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 7, saxlama vahidi 12. 9 vərəq.

Sidqi, M.T. *Töhfeyi-Bənat. Təəssüf, yenə təəssüf*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 7, saxlama vahidi 12, 9 vərəq.

Şirvani, S.Ə. *Həsən bəy Zərdabiyə məktub*. (1876). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 97. 1 vərəq.

Vəzirova, İ. *Azərbaycan maarifinin banisi – A.A.Bakıxanov.* (2015). Qafqaz tarixinin aktual məsələləri Beynəlxalq konfransının materialları (h.2). Gəncə. s.314-318.

Hablemitoğlu, N. *Çarlık Rusyasında türk konqreleri (1905-1917).* (1997). Ankara: Ankara Uneversitesi Basımevi, 145 s.

Ениколопов, И. *Об учреждении в Тифлисе училища для воспитания мусульманских детей Алиевой секты. (3 августа 1845 года).* (1949). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnsttutunun şəxsi arxiv fondu, Fond № 1, saxlama vahidi 12. 8 vərəq.

Зердаби, Г. *К вопросу о городском благоустройстве.* (1901). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 5. 57 vərəq.

Мирзоев, М.Ш. *Материалы для истории тюркской печати на Кавказе.* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 6, saxlama vahidi 456. 200 vərəq.

Понарина, Е. *От Адама до султана. В рукописях – история человечества.* (2018). Еженедельная газета научного сообщества России «Поиск». № 45.